# Öyrənənlərin şifahi nitqinin inkişafı üzrə işin linqvistik əsasları

**Səidə Maarif qızı Əliyeva**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**E-mail:** saida_maxmud2010@inbox.ru

**Rəyçilər:** p.ü.f.d., prof. S.A. Rəhimova,
filol.ü.f.d., dos. İ.M. Ağakərimov

**Açar sözlər:** nitq, linqvistika, dil fikir, forma, uşaq, ifadə, cümlə, bacarıq, lüğət
**Ключевые слова:** речь, лингвистика, языковая мысль, форма, ребенок, выражение, предложение, навык, словарный запас
**Key words:** speech, linguistics, language thought, form, child, expression, sentence, skill, vocabulary

Problemin tədqiqi bizi "Dil nədir?", "Nitq qədir?", "Şifahi və yazılı nitq nədir?" zərurəti ilə qarşılaşdırdı. Bunsuz şifahi nitqin mənimsənilməsinin linqvistik əsaslarını müəyyənləşdirmək, elmi-metodik texnologiyasını açmaq çox çətindir. Qoyulan bir çox sualların tədqiqi ilə əlaqədar istər nəzəri, istərsə də pedaqoji-psixoloji ədəbiyyat da bir çox təkzib olunmaz fikirlər söylənilib. Dil tarixən yaranan, daim inkişaf edən ictimai hadisə olduğundan bəzi mülahizələrə ehtiyac duyulmaqdadır. Çünki dilin inkişafı cəmiyyətin inkişafı ilə birbaşa bağlıdır. Dilin maddi qabığı səs kompleksi olmaqla fikrin başqalarına çatdırılmasında, ünsiyyətə qoşulmada, eşidilənlərin anlaşılmasında mühüm rol oynayır. Başqa sözlə insanlar bir-birilərini anlayır, başa düşür, fikir mübadiləsində olurlar. Dil elə vasitədir ki, onsuz nə inkişaf, nə də düz əməlli (normal) yaşam var. Dilsiz təfəkkürdə də fiikir yaranmır. Yaranmırsa, fikrimizcə onun əşyaviləşməsindən söz gedə bilməz. Dil səs kompleksidirsə, fikir məzmundur, təfəkkürdür. Təfəkkürdə yaranan obrazı, məzmunu dil vasitəsi ilə təsvir prosesi nitqdir. Bu onu göstərir ki, təfəkkürdə yaranan obrazı ifadə etmək üçün dillə yanaşı nitq də lazımdır. Deməli ünsiyyətə dil+təfəkkür+nitq gərəkdir. Nitq nədir? Sualının açılışı belədir: Nitq fikrin dil vasitəsi ilə təzahür prosesi və başqaları tərəfindən anlaşılmasıdır. Deməli dillə fikrin birləşməsi prosesində nitq əmələ gəlir. Dildən fərqli olaraq nitq hər hansı şəxsin təfəkkürünün işləmə tərzi ilə bağlıdır. Nitq prosesinin iki cəhəti mövcuddur: məzmun və forma. Nitqin məzmunu ifadə olunan fikir (təfəkkür), forması isə onun maddi qabığı olan dildir (səslər, sözlər cümlələrdir). Məzmunsuz forma, formasız da məzmun mümkün deyil. Nitq prosesində bir-biri ilə qarşılıqlı əlaqədə olan iki tərəf iştirak edir: danışan və dinləyən; yazan və oxuyan (69, 76, 84, 88).

"Nitq fikrin ifadəsi və başqaları tərəfindən qəbul edilməsidir" (63, s. 56). Dil olduqca əhatəli, geniş və zəngindir. İnsanların nitqdən bütünlüklə istifadəsi qeyri-mümkündür. İnsan yalnız fikrin ifadə etmək üçün ondan müvafiq sözlər alır, onları müxtəlif cümlələrdə işlədirlər. Dilin bütöv zəngin xəzinəsindən ancaq mənsub olduğu xalq istifadə edə bilər.

Nitq prosesinin məhsulu özünü yazılı və şifahi şəkildə göstərir. Yazılı nitq həm hərəkti bir akt, həm də qrafikdir. O, görmə qavrayışına əsaslanır. Sahibini uzunmüddət, əsirlərlə yaşadır. Yazılı nitq başlanğıcdan sonadək öz rabitəliliyini və məntiqiliyini mühafizə edə bilir. Burada sözlər ədəbi qaydalar əsasında düzülür. Sözlər, ifadələr öz yerini dəqiq tutur. Leksik, morfoloji, sintaktik cəhətdən mükəmməl əlaqələnir, cilallanır, bitkin formaya salınır. Bunları yazılı

nitqin başlıca xüsusiyyətləri kimi qəbul etmək mümkündür. Yazılı nitqdə abzaslar, paraqraflar, vergül, nöqtə, iki nöqtə, nöqtəli vergül, tire və s. olur. Nitqin məzmunu müxtəlif kursiv işarələrlə açılır. Şifahi nitqdə xarici ifadə vasitələrindən (səs, jest, mimika, intonasiyalar) istifadə olunur. Bu nitqin yaranma tarixi çox qədimdir. O konkret şəkildə təzahür olunan ünsiyyətin ilkin və əsas formasıdır. O səslər, ifadələrin seçilməsi cəhətdən sərbəstdir. Şifahi nitq fərdən, danışandan kənarda mümkün deyildir. Əgər nitq yaşamırsa, onun məhsulu da yoxdur. Şifahi nitq təbiidir.

Şifahi nitqdə sözlərin, ifadələrin, cümlələrin işlənməsində, səsin qalxıb-enməsində, səs çalarlarının rəngarəngliyində, melodialığında, poetikliyində xüsusi hallar özünü göstərir.

Məktəbəqədər dövrdə uşaqlar şifahi nitqə əsasən təqlidi yolla, sonradan radio-televiziya və uşaq verlişlərindən, yaşlıların və yaşıdlarının nitqlərindən dinləmə, başa düşmə, anlama nəticəsində yiyələnirlər. Gördükləri, eşitdikləri əsasında qavrama yolu ilə şifahi ünsiyyətə qoşulurlar. Sözün və cümlənin mənasını anlama və başa düşmə mürəkkət nitq fəaliyyəti olmaqla ifadə etdiyi mənanı əşya və hadisənin köməyi ilə yerinə yetirirlər. Onda nitq mexanizmi formalaşdıqca uşaq öz fikirlərini tədricən ifadə etməyə alışdıqca, mənası tanış olmayan sözləri də mövcud lüğət ehtiyatı zəminində qavramağa, öyrənməyə nail olur. Mənasını yeni öyrəndiyi sözlərlə mənimsədiyi sözlər arasında qrammatik və məntiqi əlaqələr yaradır, onları cümlə içərisində işlədir, getdikcə mənasını genişləndirməyə çalışır. Belə ki, əvvəl uşaqlar əşyanı görüb adını deyir, sonralar isə onun daxili və xarici əlamətləri öyrənir, spesifiq cəhətlərindən danışırlar: məsələn, birinci halda alma, duz, nar və s. deyir, ikinci halda isə alma yumrudur, qırmızıdır, şirindir, düz yumuşaqdır, ağdır, şordur; nar qırmızıdır, yumrudur, giləlidir, suludur (40).

Şifahi nitqin özünəməxsus stilistik xüsusiyyətləri mövcuddur. Sözləri ifadələri necə gəldi işlətmək, cümlədə sözlərin sıralanmasında tələffüz qüsurlara yol vermək, söz birləşmələri cümlələr arasında qrammatik-sematik, məntiqi əlaqələri gözləməmək, məqsədə dəxli olmayan fikirlər söyləmək, təkrarlar və s. halları baş verir. Bu dediklərimizə akademik L.V.Şerbanın fikri də canlı sübutdur. Danışıq nitqində hər cür fonetik ixtisarlar, gözlənilməz forma yaradıcılığı, vərdiş edilməmiş söz yaradıcılığı, ilk baxışda əcaib görünən sözlərdən istifadə edilməsi, nəhayət, sintaktik formaların hər cür pozulması baş verir (121, s.115).

V.B.Şerba yazır: Ahəngdar şifahi nitqin başlıca üç əlaməti mövcuddur: "a) Məzmunlu və inamlı; b) Ardıcıl və məntiqi; v) Qısa, düzgün, emosional və ifadəli nitq" (69, s.117).

Əslində normal şifahi nitq seçmə nitq vahidlərinin sərrast düzülüşündən yaranır. Yüksək şifahi nitq sehirli ifadələr və sözlər toplusudur. Şifahi nitq canlı danışıq, xalq deyimləridir.

Şifahi nitqdə faktlar, hadisələr parlaq qiyafə alır. Başqa sözlə, insan içindəki gizli ruhu qüvvənin köməyi ilə şüurunda əlahiddə parlaqlıq, əlvan lövhə yaradır. Q.Belinski (57), N.Q.Çemişevski (120), N.A.Dobrolyubov (113) şifahi nitqin insanın yaradıcılığında xüsusi rol oynadığını dönə-dönə vurğulamışlar. Onların fikrincə, elm üçün zəka və kamal, yaradıcılıq üçün xəyal lazımdır. Məlumdur ki, hər bir insan konkret təfəkkürdən mücərrəd təfəkkür formalaşdırır. Mücərrəd təfəkkür abstraksiyadır. İki siqnal sistemi haqqında təlim yaradan İ.P.-Pavlov birincidən fərqli olaraq ikinciyə "ali təfəkkür" kimi baxır. Hər bir uğurlu ifadə şüurlu təfəkkürün məhsuludur. Akademik K.M.Bilkovun şifahi nitqlə əlaqədar fikirləri N.A.Dobrolyubovun qənaətlərini təsdiqləyir. Bu ideyanı sornalar V.Bruslov da müdafiə edirdi.

Öyrənənlərin şifahi nitqinin inkişafı istiqamətində iş apararkən S.L.Rubinşteynin aşağıdakı fikirləri diqqət mərkəzində saxlanılmalıdır. Şifahi nitqin iki inkişaf yolunu göstərən fikirləri əsas götürülməlidir.

"a) İnsanın fiziki və mənəvi inkişafı ilə müəyyənləşən stixiyalı yol;

b) İnsanın fiziki və mənəvi inkişafından ayrılmayan, ictimai mühitin köməyi ilə şüurlu,

məqsədyönlü yol" (130, s.19).

Hazırda informasiyaların tüğyan etdiyi elə bir dövrdə yaşayıb yaradırıq ki, insanlar hər cür informasiyaya yiyələnməyə can atırlar. Obrazlı desək informasiya tələbatları yeməyə içməyə olan ehtiyacların səviyyəsinə qalxmışdır. Məkiəbdə təlim fənləri yuxarıda dediyimiz kimi məişətdə radio və televiziya, mətbuat, kitab, yığıncaqlar və s. insanların mənəvi aləmlərinin bir növ qidasına çevrilmişdir. Dünyagörüşlərinin genişlənməsinin və formalaşmasının əsasında dayanır. Bütün bunlar hamıda, o cümlədən öyrənənlərdə necə fikir oyatmasın, lüğət ehtiyatlarını zənginləşdirməsin, cümlə qruma bacarıqlarını və rabitəli nitqlərinin inkişafına təsir göstərməsin.

Görkəmli dilçi-metodist alimlərdən Q.A.Şemota (120), Y.Ş.Kərimov (126) və başqları lüğət işinin linqvistik əsaslarından bəhs edərkən sözün leksik, qrammatik, tələffüz xüsusiyyətlərini nəzərə almağı məsləhət bilirlər:

1. Fonetik ifadəliliyi;
2. Semantik valentliyi;
3. Vurğulu və vurğusuzluğu;
4. Leksik-qrammatik münasibətdə olduğu;
5. Bütövlüyü (tərkibinə başqa sözün daxil olmasına yol verməməzliyi);
6. Nitq axınından ayrılmazlığı;
7. Cümlə tərkibində işlənməsi və s.

Şifahi nitq dialoji və monoloji formada özünü büruzə verir. Əslində bu formalar ayrı-ayrılıqda yaranmır, inkişaf etmir. Onlar qarşılıqlı dialektik əlaqədədirlər. Biri digərinin inkişafına təkan verir, onu zənginləşdirir və inkişaf etdirir. Hər ikisi təfəkkürdə doğulub formalaşan fikrin özünü ifadə yoludur.

Şifahi nitq prosesinin məhsulu monoloji və dialoji olur. Onlar xarici nitqdə baş verir. Bu heç də o demək deyildir ki, burada daxili nitq iştirak etmir. Belə düşünmək ciddi səhv olardı. Daxili nitq xarici nitq üçün bir mərhələdir. İlkin olsa da, xarici nitq daxili nitqə əsaslı şəkildə təsir edir, onun inkişafına təkan verir. Bu xüsusiyyət nitqin digər növləri üçün də xarakterikdir. Şifahi dialoji nitq eyni mövzuda iki adam arasında təzahür edir. O, replika və reaksiyalarla müşayiət olunur. Fikrin yığcamlığı, cümlələrin yarımçıqlığı, mimik və jestikulyativ hərəkətlərin, məcazların bolluğu onun başlıca cəhətidir. Dialoqlar adətən hazırlıqsız olur. Ancaq müsahiblər bir-birinə tez bələdləşir. Birinin göndərdiyi reaksiya digərinə stimul verir. Danışanın nitqinə replika vermək zərurəti yaradır. Nəticədə getdikcə fikrin məntiqi düyün nöqtəsi açılır. Onlar ifadə olunan şifahi fikri asanlıqla anlayırlar (40, s. 41).

Dialoji nitqdə anlayışlardan, terminlərdən, anlaşılması çətin olan ifadələrdən, qəliz nitq konstruksiyalarından qaçılır. Onların işlənməsi dialoqun başa düşülməsini çətinləşdirir. Odur ki, dialoqun qısa, sadə, yığcam, ekspressiv, ifadəli, obrazlı olmasına çalışılmalıdır. Qısalığa və formaca sadəliyə can atmaq, fikri emosional və obrazlı vermək nitq təliminin qarşısında duran başlıca vəzifədir.

Dialoqda həm daxili, həm də xarici stimul olur. O konkret mövzu ətrafında təzahür edir. Fikir obrazlı dialoqun sonunda bitir, sonra rabitəli mətn alınır. Burada hər iki iştirakçı başlıca funksiya daşıyır (39, s. 340). Monoloji nitq dialoji nitqdən əsaslı şəkildə fərqlənir. Fikrin rabitəliliyi, tamlığı, genişliyi, söz və cümlələrin məntiqi ardıcıllığı monoloji nitqin əsas xüsusiyyətləridir. Lakin bu fərqlərə baxmayaraq nitqin bu iki növü arasında müəyyən yaxınlıq əlaqələri də vardır. Bu bir həqiqətdir ki, danışmağa başlayan uşaq başqalarının fikrini dialoji nitq əsasında başa düşür. O tədricən nitqin bu növündə danışır. Onun nitqi formalaşmağa başlayır. Bu zəmində monoloji nitqin elementlərinə yiyələnir. Aparılan xüsusi tədqiqat göstərir ki, bu

formalar, növlər nitq fəaliyyəti prosesində qaynayıb-qarışır. Məktəb təlimində isə bunların inkişaf etdirilməsi üzrə işin sistemi qarşılıqlı əlaqədə aparılır. Monololji nitq vahid mövzu ətrafında cərəyan edir. O, geniş, müfəssəl yaxud müxtəsər, rabitəli və məntiqidir. Danışıq dilində əsasən monoloqdan istifadə olunmur. Öyrənənin hekayənin, nağılın məzmununu nağıl etməsi, inşası, öyrədənin mühazirəsi, çıxışları monoloqdur. Burada bir nəfər danışır, çoxluq dinləyir. Faktlar və dəlillərə əsaslanan məzmun və dil tərtibinə görə monoloq nitq daha mürəkkəbdir. Akademik Şerbanın fikrincə, şüur obrazlı monoloji nitqin tərtibinə daim nəzarətdədir. Çünki şifahi monoloji nitq fikirlərin, söz, ifadə və cümlələrin yüngülləşmiş mütəşəkkil sistemidir. Monoloq söylənilərkən dinləyicilərin hazırlığı, ixtisasları, hadisələri təhlil etmə, nəticə çıxarma imkanları nəzərə alınmalı, hamının başa düşəcəyi, sadə, anlaşıqlı, ifadə olunmalıdır. Monoloq öz mahiyyəti ilə ümumi dilin ən dəqiq formasıdır. Monoloqun bir tərəfi həmişə ənənəvi elementdən ibarət olub, digər tərəfi isə fərdin daha aydın təsviri ilə həyata keçir. N.İ.Jinkinə görə, monoloji nitqin formalarına sərbəst yiyələnmək incəsənətdir (121, s. 19). Monoloji nitq ən mütəşəkkil nitq növüdür. Bu halda danışan yalnız ayrıca fikri deyil, bütövlükdə obrazlı monoloqu bir tam kimi planlaşdırır, yaxud proqramlaşdırır. Bu nitq növündə daxili stimul başlıca rol oynayır. Danışan fikri, danışığın xarakteri, dil materiallarının, ünsiyyət formalarının seçilməsi və mənimsənilməsini intensivləşdirir. V.V.Vinoqradov yazır: «Monoloq daha mürəkkəb formadır. Ümumi kollektiv ifadə vasitələrinin məcmusu olan dilə xas deyil, bəlkə fərdi əhvali-ruhiyyənin təzahür nöqtəsidir» (6 s. 119). Monoloqda cümlələr eyni məqsədə, eyni funksiyaya malikdirlər. Ona görə də öyrədən ciddi cəhdlə çalışmalıdır ki, öyrədəndə mükəmməl fərdiləşmiş obrazlı nitq tərbiyəsi aşılasın. Bunsuz qarşıya qoyulmuş məqsədə çatmaq qeyri-mümkündür.

Tədqiqat və məktəb təcrübəsi göstərir ki, şifahi nitqin inkişafıqdan danışarkən onun obrazlılığına toxunmamaq ciddi səhv olardı. Obrazlı nitq insanın dərin, çevik, mücərrəd təfəkkürünün və eləcə də təxəyyülünün məhsuludur. O, ifadəli və səlis nitqin bir çox cəhətini özündə ehtiva edir. Bununla belə şifahi və yazılı, monoloji və dialoji nitq növləri də obrazlılıqdan xali deyildir. Əksinə, obrazlılıq nitqin bütün növlərini bəzəyir, onlara naxış vurur, ifadə olunan fikrə əlvanlıq gətirir. Obrazlı nitq hisslərlə ağılın vəhdətində doğur. Bu nitqdə müəllifin hissləri, əsas ideyaları, başlıca fikirləri çox zaman obrazlı ifadələrlə verilir. Məsələn: "Günəşin ılıq şüaları dənizə səpələndikcə sular əl əlvan rəngə boyanırdı", "Zəmi dəniz kimi dalğalanır", "Kolun ətrafındakı meşələrdə ucalan ağacların əksi ayna sulara düşür, tamam yeni bir çalar yaradırdı", "Göylərdən yerə nur ələnirdi" və s. Bu nümunələrdə işlənən obrazlı ifadələr təkcə eşitmə analizatoruna sakitlik gətirmir, eyni zamanda ifadə ecazikarlığını artırır, oradakı hisslər, emosialar adamın mənəvi aləminə təsir eləyir, dinclik, rahatlıq verir. Obrazlı nitqdə həm həqiqi, həm də məcazi mənada sözlər işlənir. Sözün həqiqi mənası konkret surətdə əşya, hadisə, proses bildirirsə, məcazi mənə əşyanın əlamətlərinin tutuşdurulmasına əsaslanır. Məcazi mənada işlənən söz və ifadə əşyanın əlamətlərini digərinə ötürür və təsdiq edir (bənzədir). Bəzən eyni söz bir kontekstdə (cümlədə) məqsəddən asılı olaraq həqiqi müstəqil mənada işləndiyi halda, başqa yerdə (kontekstdə) öz əvvəlki mənasını itirir, tamamilə yeni funksiya daşıyır, məcaz olur. "Torpaq namərd düşmənin ayaqları altında işləyir" cümləsində «işləyir» sözü məcazi mənasında işlənir. Bu o deməkdir ki, torpaq sözü sahibi üçün darıxıb, kimsəsizləşib. Yadlara əsir düşdüyündən talanır, əkilib-biçilmir, suya həsrət qalıb. Güllərin dərib ətrini çəkən yoxdur. Obrazlı nitqdə lövhə yaranır, sözün ecazikar qüdrəti duyulur, poetikliyi, ikifikirliliyi üzə çıxarır.

Nəzəri dilçilikdə məcazlar iki yerə ayrılır: Leksik məcazlar; üslubi məcazlar. Leksik məcazlara (bıçağın ağzı, şkafın gözü, sözün kəsəri, ağacın başı, dağın kəlləsi) və s. adamın qulağı

öyrəndiyindən onlardakı emosiya, rəng çaları, əlvanlıq duyulmur. Üslubi məcazlar **(gözləri yaşlı çiçəklər, qəzəbli dalğalar, titrəyən qəlb, hürkən çiçəklər, çiçəklənən arzular, coşan dəniz, susan dilək və s.)** emosional-ekspressiv çalar yaradır. Aid olduğu əşya, mənzərə adamın təsəvvüründə əlvan boyanır, təbii bir mənzərə canlandırır. S.L.Rubinşteynə görə üslubi məcazlar fikrin inkişafı prosesində obrazlı və mücərrəd məzmunun müxtəlif münasibətlərinin açılması üçün bir aləmə çevrilir.

T.P.Krestinskaya və S.V.Petrova yazırlar: "Üslubi məcazlar əşyaların, xarakterlərin əlamətlərinin tutuşdurulmasına, bir cəhətdən digərinə asanlıqla keçməsinə şərait yaradır. Emosional-ekspressiv təsirə malik olan təsvir vasitələri (metafora, metonimiya, snekdoxa, təşbeh, epitet, perefraz) şifahi nitqin obrazlılığını təmin edir. Obrazlı şifahi nitqdə söz sehirlənir, hisslər, zövqlər hərəkətə gəlir, insanda heyranlıq yaradır.

Obrazlılıq nöqteyi-nəzərindən emosionallıq və ekspressivlik danışıq dilinin səciyyəvi xüsusiyyətləri olduğundan şifahi nitqdə müstəsna əhəmiyyət daşıyır. O həm də şifahi ifadələri zənginləşdirir. Birdə ki, hisslərlə bağlı olduğundan onun imkanları geniş və rəngarəngdir. Təcrübə göstərir ki, emosional-ekspressiv sözlər hər şeydən əvvəl həm nitqdə ifadəlilik yaradır, həm də neytral sözlər belə xüsusi üslubi priyomlar sayəsində emosional və ekspressiv çalar ifadə edirlər. Məlumdur ki, emosionallıq hiss və həyəcan bildirir. Belə sözlər elmi-nəzəri ədəbiyyatda nidalar adlanır. Emosionallıq sözün leksik mənasından doğur. Bu söz və ifadələrlə insanın içindəki **hisslər, duyğular, təlatümlər, qəzəb, nifrət, sevinc, fərəh** və s. meydana çıxır. Məcazi mənada işlənən söz emosiyanı oyadır. Ekpressivlik emosionallığa nəzərən geniş anlamdır. "Ekspressiya yalnız insanın nitqində deyil, həm də hərəkət, mimika, ümumi davranış və hətta iş fəaliyyətində də özünü göstəri. Ekspressiya, ekspressivlik həm emosional, həm də intellektual və iradə bildirən ifadələrə məxsus ola bilər" (63). Bir qədər də fikrimizi dəqiqləşdirsək, ekspressivlik sözün ifadəliliyi, gücü, onun qarşıdakına təsiridir. Emosionallıqdan fərqli olaraq ekspressivlik birinci növbədə semantik kateqoriyadır. Çünki sözdə ekspressiyanın əmələ gəlməsi həmişə onun məna dairəsinin genişlənməsi və mürəkkəbləşməsi, bundan əlavə, ikinci dərəcəli məna çalarlarının əmələ gəlməsi ilə bağlıdır" (62). Bu məna çalarları sözün ifadəlilik və təsirlik qüvvəsinin artırılmasına, nitqdə poetikliyin, ecazkarlığın, başqa sözlə obrazlılığın artmasına təkan verir. Onu da qeyd edək ki, emosionallıq və ekspressivlik sərbəst olsalar da, nitqdə müstəqil çıxış etsələr də, bəzən müəyyən anlarda, zərurət yarandıqda birləşirlər. Bu da nitqin obrazlı ifadəsinə kömək göstərir.

Emosionallıq və ekspressivlik kiçikyaşlı məktəblilərin nitqində ifadə etdikləri fikrin məzmunu və danışıq prosesində keçirilən hisslərlə, təfəkkürdəki çevikliklə bağlı meydana çıxır.

Təcrübə göstərir ki, dilin ifadə vasitələri (bədii sual, bədii nida, intonasiya, qrammatik, məntiqi və psixoloji fasilələr) də obrazlı nitqin emosionallığını, estetik dəyərini artırır. Dilin forma vasitələri ifadə olunan cümlələrdəki hisslərlə **(sevinc, şadlıq, kədər, qəm, qüssə, təəssüf, təəccüb** və s. əhvali-ruhiyyə) bağlıdır. Müşahidələr göstərir ki, şifahi nitqdə hər cür xırda hissləri, duyğuları ifadə etmək çətin olur. Bu zaman mimika və jestlərlə yanaşı, intonasiya da köməyə gəlir.

Kiçikyaşlı məktəblilərin nitqində az da olsa, obrazlı ifadələr işlənir. Məlumdur ki, nitqin məzmunu söz, ifadə və cümlələrlə hörülür. Müəllim ciddi cəhdlə hər bir sözün, ifadənin və cümlənin məna və məzmununu öyrənənlərə açmağa çalışmalıdır. Əlbəttə, öyrənənlər bu və ya digər dərəcədə məcazi mənada işlənən söz və söz birləşmələrinin mənasını, onların ifadə etdikləri bədiilik, axıcılıq, oynaqlıq vəziyyətlərini, hiss-həyəcan, əhvali-ruhiyyə oyatmaq təsir gücünü duyur, başa düşür. Söz və ifadələrin mənası çox zaman müqayisə (tutuşdurma və fərqləndirmə) əsasında üzə çıxır. Öyrənən eyni sözü iki cümlədə, mətndə müqayisə edərək onlar-

da ifadə olunan mənanı, konkretlik və mücərrədliyi, poetikliyi nümunələrin köməyi ilə anlaya bilir. Əyani şəkildə görürlər ki, əşya və hadisələrdəki oxşar cizgilər (əlamətlər) digərinə asanlıqla transformasiya olunur. Bu mənada I-IV sinif öyrənənlərinin təxəyyülündə köçürülənin bütöv obrazı canlanır. Obrazlı ifadələr nitqdə müxtəlif funksiya daşıyır. Söz və ifadələr bəzən sıx əlaqədə olduqları başqa söz və ifadələrlə də əvəzlənə bilirlər. Məsələn, **"Qalxdı şəhər yuxusundan"** nitq vahidini götürək. Burada şəhərlə onun əhalisi eyniləşdirilir. Aydındır ki, **"Qalxdı uşaq yuxusundan"** cümləsində **"qalxdı"** sözünün mənası əvvəlki cümlənin mənasından əsaslı şəkildə fərqlənir. Öyrənənlər təsvir olunan əşyaların özüi ilə onun küllünü fərqləndirməyi bacarmalıdırlar. Yaxud **"İnsan özünü dəyərləndirməyi bacarmalıdır"** nitq vahidindəki **"insan"** sözü tək formada insanı ifadə etsə də, o, dünyadakı bütün insanlara aiddir. "İnsan" sözü bu cümlədə küllü (toplunu) bildirir. Əşyaların, hadisələrin, obyektlərin bir-birinə bənzədilməsi ilə yaradılan obrazlı ifadələr nitqə canlılıq gətirir. **"O, yerindən pələng kimi sıçradı", "Torpaq dəmir kimi qızmışdı", "Erməni it kimi qudurmuşdu", "O ayı kimi bağırdı", "O dəvə kimi kinlidir", "Təyyarə elə guruldadı ki, sanki dağlar uçub üstümüzə töküləcəkdi", "Onun gəlişiylə elə bildik üstümüzə nur çiləndi"** kimi nitq vahidlərində bənzərlik əlamətləri göz qabağındadır. Mahiyyətin müqayisələr əsasında açılması öyrənənlərin təfəkkürünü hərəkətə gətirir, onların obrazlı nitqlərinə qida verir.

Aydındır ki, ibtidai siniflərdə öyrənənlərlə bənzəyənə əsasən bənzədilənin tapılması, əşyanın bənzəyən əlamətinə görə bənzədilənin müəyyənləşdirilməsi, habelə, iki əşya, hadisə arasında əsas əlamətlərin seçilməsi üzrə praktik işlər aparılır. Eyni zamanda oxu materiallarındakı epitetlərin seçilməsi, onların müstəqil tərtibi və cümlələri genişləndirmək imkanları, eləcə də əşya və hadisələrə uyğun bir neçə belə epitetin tapılması, bir sözlə, emosional-ekspressiv çalarlı epitetlərin izahına aid çalışmalara diqqətin artırılması obrazlı nitqin inkişafı baxımından əhəmiyyətlidir. Öyrənənlər bu tipli çalışmalar əsasında öyrənirlər ki, dilin təsvir və ifadə vasitələri üzərində aparılan rəngarəng işlər obrazlı nitqin inkişafına əsaslı təkan verir. Obrazlı nitq bədii təfəkkürü inkişaf etdirməklə oxunulan materialın məzmun və ideyasının dərindən mənimsənilməsinə, şagirdlərin mənəvi aləmi, onların elmi dünyagörüşünün genişlənməsinə, ümumi mədəniyyətin formalaşmasına kömək göstərir. Buradan belə bir metodik müddəa meydana çıxır: ibtidai siniflərdə şagirdlərin obrazlı nitqinin inkişaf etdirilməsi üzrə işlər apararkən dilin təsvir və ifadə vasitələri haqqında elmi müddəalar praktik şəkildə (terminsiz) nəzərə alınmalıdır. Fikrin məntiqi ardıcıllıqla izahına, bu sahədəki işlərin pedaqoji və psixoloji xüsusiyyətlərinə diqqət yetirilməlidir.

**Məqalənin aktuallığı.** Şifahi nitqin mənimsənilməsinin linqvistik əsaslarını müəyyənləşdirmək, elmi metodik texnologiyasını açmaq çox çətindir. Bununla bağlı istər nəzəri, istərsə də pedaqoji-psixoloji ədəbiyyatda bir çox fikirlər söylənilib. Dil daim inkişaf edən ictimai hadisə olduğundan onun inkişafı həm də cəmiyyətin inkişafı ilə birbaşa bağlıdır. Məqalənin də aktuallığı məhz onun belə bir vacib məsələyə həsr edilməsi ilə bağlıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə dilin inkişafının cəmiyyətinin inkişafı ilə bilavasitə bağlılığı vurğulanmaqla, yazılı və şifahi nitqin özünəməxsus xüsusiyyətləri sadalanır, məşhur dilçi alimlərin şifahi nitqlə bağlı fikirlərinə yer verilir, şifahi nitqin inkişaf yolları və s. göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Rəhimov A. I sinifdə Azərbaycan dili dərslərində şagirdlərin monoloji nitqinin inkişafı üzrə işin sistemi. Nam.dis. Bakı, 1985.
2. Rəhimov A. Ana dilinin tədrisi metodikası (ibtidai siniflərdə). Bakı, 2003.
3. Rəhimova S. Şagirdlərin nitqinin inkişafında müqayisə priyomundan istifadə. Bakı, 2018.
4. Rəhimova S. İfadəli oxu dərslərində nitq inkişafı. Bakı, 2013.
5. Əhmədov B. Ana dili dərslərində şagirdlərin nitqini inkişaf etdirmək yolları. Maarif, Bakı, 1967.
6. Kərimov Y. Uşaq baccalarında nitq inkişafı. «Maarif», Bakı, 1985.
7. Nitq mədəniyyəti məsələləri. Bakı, Elm, 1988.

**С.М. Алиева**

## Лингвистическая работа по развитию устной речи учащихся основы

### Резюме

Очень сложно определить лингвистические основы овладения устной речью, раскрыть научно-методическую технологию. По этому поводу высказывалось много мнений как в теоретической, так и в педагогико-психологической литературе. Поскольку язык - это постоянно развивающееся социальное явление, его развитие также напрямую связано с развитием общества.

В статье подчеркивается прямая связь развития языка с развитием общества, перечисляются особенности письменной и устной речи, взгляды известных лингвистов на устную речь, пути развития устной речи и др. отображается.

**S.M. Aliyeva**

## Linguistic work on the development of learners' oral speech basics

### Summary

It is very difficult to determine the linguistic basis of mastering oral speech, to reveal the scientific-methodical technology. Many ideas have been expressed in this regard, both in theoretical and pedagogical-psychological literature. Since language is a constantly evolving social phenomenon, its development is also directly related to the development of society.

The article emphasizes the direct connection of language development with the development of society, lists the peculiarities of written and oral speech, the views of famous linguists on oral speech, ways of development of oral speech, etc. is displayed.

**Redaksiyaya daxil olub:** 05.05.2021